# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 3-cü səhifədə).

Bum qəsəbəsində 10.000 p/m daşıyıcı, 3.994 p/m müxtəlif diametrli paylayıcı, Nic qəsəbəsində 11.000 p/m daşıyıcı, Nohurqışlaq kəndində isə 12.605 p/m müxtəlif diametrli qaz xətləri çəkilmişdir. Rayonun qaz təchizatını yaxşılaşdırmaq məqsədilə mövcud qaz təchizatı məntəqəsinin yeri dəyişdirilmiş, bununla əlaqədar 15.641 p/m müxtəlif diametrli polietilen borular çəkilmişdir.

Azərbaycan hökuməti və Dünya Bankının maliyyə dəstəyi əsasında Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində işlər davam etdirilmişdir. Bu günədək 6 ədəd subartezian quyusu qazılmış, 2 ədəd 1000 kubmetrlik, 4 ədəd 600 kubmetrlik, 4 ədəd 500 kubmetrlik su anbarlarının tikintisi başa çatdırılmışdır. Anbarlar su ilə doldurulmuş, germetikliyi yoxlanılmışdır. Hazırda laboratoriya binasında və xlorator qurğusunda tamamlama işləri görülür. "Qaraçay", "Duruca", "Qarasu" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin küçələrində aparılan abadlıq işləri ilə əlaqədar 180 metr müxtəlif diametrli plastik borular yenisi ilə əvəzlənmişdir. Əhali qrupu üzrə 30 abonentə və 2 təşkilata su sayğacı quraşdırılmışdır. Mövcud kanalizasiya xətlərində cari təmir işləri aparılmış, Səməd Vurğun küçəsində 700 metr, Nizami küçəsində 380 metr, İsmayılbəy Qutqaşınlı küçəsində 600 metr, Mirzə Fətəli Axundov küçəsində 1110 metr, Məcid Mərdanov küçəsində 800 metr, 28 May küçəsində 50 metr, Elçin Kərimov küçəsində 400 metr, 20 Yanvar küçəsində 200 metr, Nəsimi küçəsində 300 metr kanalizasiya xəttində təmizləmə işləri aparılmışdır. Səməd Vurğun küçəsində 100 metr 300 millimetrlik diametrli asbest boru ilə yeni kanalizasiya xətti çəkilmişdir. İl ərzində 204,2 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 92,2 faizi yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 87,4 faiz, büdcə təşkilatları, kommersiya və digər təşkilatlar üzrə 100 faiz olmuşdur.



*Azərbaycan Respublikasının Pezidenti İlham Əliyev Qəbələdə «Karvansaray» hotel kompleksinin tikintisi damam edən ərazidə.*



*Prezident İlham Əliyev tikintisi davam etməkdə olan Qəbələ Stend və Ox Atıcılığı Kompleksində.*

Qəbələ Telekommunikasiya qovşağı 2012-ci il ərzində 920 min manat tarif gəliri proqnozuna qarşı 937 min manat gəlir əldə etmiş, proqnoz tapşırığına 101,8 faiz əməl etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,6 faiz, yəni 74 min manat artıq gəlir əldə edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ filialı 2012-ci ildə 181,1 min manata qarşı 172,8 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığını 8,3 min manat kəsrlə (95,3 faiz) yerinə yetirmişdir. Məlikli, Zalam, Yenikənd, Quşlar, Bunud və Bayramkoxalı kənd poçt şöbələrində yeni binaların tikilməsi üçün bütün sənədləşmə işləri başa çatdırılmış, aidiyyatı üzrə "Azərpoçt" MMC-yə göndərilmişdir. Qəmərvan poçt şöbəsi üçün yeni müasir bina tikilərək istifadəyə verilmişdir. Qəbələ Poçt Filialının inzibati binası əsaslı təmir edilmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 564 min kubmetr lildən təmizlənmiş, Türyançay, Dəmiraparan, Bum, Həmzəli, Tikanlı, Vəndam çaylarında 1103 min kubmetr çay məcrası təmizlənmiş, 320 kubmetr qabion bənddə, 1.900 kubmetr daş beton bənddə tənzimləmə və sahilbərkitmə işləri görülmüş, 2.522 kubmetr daş-beton bəndi cari təmir edilmişdir. İl ərzində 15,8 min manat su pulu yığılaraq proqnoz tapşırığa 100 faiz əməl olunmuşdur.

Qəbələ Rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 2012-ci il ərzində 15 km fiziki göstərici ilə 1.060 min manat proqnoza qarşı 0,9 km məsafədə 93,1 min manatlıq təmir işləri, 525 min manat proqnoza qarşı 525,2 min manatlıq cari təmir və yolların saxlanması işləri, 412,9 min manat proqnoza qarşı 412,9 min manatlıq sair işlər görülmüşdür.

Dövlət Sosial Müdafiə Fondu Qəbələ rayon şöbəsi tərəfindən 2012-ci ilin yekununa görə gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 5,072,1 min manata qarşı 4.938,5 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, illik proqnoza 97,4 faiz əməl olunmuşdur. İl ərzində 1.233 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 64-ü hüquqi, 994-ü fiziki şəxs, 175-i isə pay torpaq mülkiyyətçisi olmuşdur. 1 yanvar 2013-cü il vəziyyətinə şöbə üzrə 11.637 pensiya işi üzrə 12.011 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Pensiyaçılara təyin olunmuş ümumi pensiya məbləği cari ildə 18.875,9 min manat, bir pensiya işi üzrə orta aylıq pensiya məbləği 134 manat 13 qəpik təşkil etmişdir.

(Ardı 5-ci səhifədə).



*Ölkə başçısı Qəbələ səfəri çərçivəsində rayonda tikilməkdə olan «Tufan» dağ-xizək yay-qış istirahət kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*